Sentyabr-Dekabr/2021 № 2

# TÜRKOLOJİ DİLÇİLİK

UOT: 811.512.1

SEVDA SADIQOVA*

## TÜRK TARİXİ, DÜŞÜNCƏSİ VƏ DİLİNİN QƏDİM İZLƏRİ M.BAŞTUNUN "ŞAN QIZI DASTANI"NDA

*(Akademik T.İ.Hacıyevin anadan olmasının 85 illik yubileyinə həsr olunur)*

**XÜLASƏ**

Məqalə Mikayıl Baştunun "Şan qızı dastanı"nın təqdiqi məsələsinə həsr olunmuşdur. Məqalədə göstərilir ki, "Şan qızı dastanı" Azərbaycan elmi ictimaiyyətinə ilk dəfə olaraq akademik T.Hacıyev tərəfindən təqdim edilmişdir; o, abidəni Azərbaycan dilinə tərcümə etmiş, ümumtürk tarixi, dünyagörüşü, dili istiqamətində tədqiqat aparmışdır. Məqalədə həmçinin alimin "Dədə Qorqud kitabı" ilə müqayisəli təhlilindən, elmi ədəbiyyatda "İqor polku haqqında povest" ilə "Şan qızı dastanı"nın oxşar faktlarına yeni əlavəsindən bəhs edilir. Qeyd olunur ki, T.Hacıyev bulqar abidəsi haqqında yalnız bir dilçi kimi deyil, tarixçi, etnoqraf, filosof kimi də öz sözünü deyir və əsərin əsas tədqiqat istiqamətlərini müəyyənləşdirir. Məqalədə bulqar ədəbi abidəsi "Şan qızı dastanı"nın ümumtürk faktı olması vurğulanır.

**Açar sözlər**: *Şan qızı dastanı, Tofiq Hacıyev, mif, tarix, dil, Baştu, Kıy*

**Giriş.** Azərbaycan dilçiliyinin korifeylərindən olan, ömrünün və yaradıcılığının böyük bir hissəsini türkologiya elminə, ədəbi dilin tədqiqinə həsr edən Tofiq Hacıyevin zəngin elmi yaradıcılığı çoxşaxəli və coxistiqamətlidir. Hansı sahə və istiqamətdə tədqiqat aparmasından asılı olmayaraq, onun əsərlərində milli kimlik məsələsi ana xətt kimi keçir və qədim türk kökünə, ümumtürk kontekstinə bağlanır. Tofiq Hacıyevin bütün yaradıcılığı bu gündən keçmişə, keçmişdən bu günə və gələcəyə tarixi-elmi səyahətdir.

Onun elmi yaradıcılığında "Şan qızı dastanı" xüsusi yer tutur. Bu əsərin Tofiq Hacıyevin araşdırmalarında yer alması sıradan bir elmi tədqiqat işi deyil. Qəribə taleyi olan abidə "türk dastançılıq ailəsinin qanuni üzvü"dür [Hacıyev: 2005, s.89], bulqar tarixini, bütövlükdə türkün mifik düşüncəsini, dünyagörüşünü, tarix və coğrafiyasını, çeşidli-keçidli inanclarını və neçə maraqlı məsələni özündə əks etdirən ədəbi tapıntıdır. Bulqar-tatar ziyalısı, ərəbşünas İ.Niqmatulin ərəb əlifbasında yazıya alınmış əlyazmanı qorumaq məqsədi ilə rus dilinə tərcümə etmişdir. Bulqar dilində olan orijinal nüsxə bu günə qədər tapılmamışdır [Mamedova: 2010, s.32].

Mikayıl Baştunun "Şan qızı dastanı" 1990-cı ildə Kazanda, 1991-ci ildə İstanbulda türk dilində, 1992-ci ildə Kiyevdə, 1997-ci ildə Sofiyada bolqar və rus dillərində, 2005-ci ildə Azərbaycanda, 2008-ci ildə isə Kazanda bulqar cəmiyyəti tərəfindən bulqar dilində nəşr olunmuşdur [Mamedova: 2010, s.34; Bülent:: 2009, s.87; ].

**"Şan qızı dastanı" T.Hacıyevin elmi yaradıcılığında**.

Abidə Azərbaycan elmi ictimaiyyətinə ilk dəfə olaraq T. Hacıyev tərəfindən təqdim edilmişdir. O, əsər üzərində bir dilçi kimi deyil tarixçi, etnoqraf, filosof kimi də öz sözünü demişdir.

T.Hacıyev, abidə üzərində iki istiqamətdə yaradıcılıq işi aparmışdır:

1.Əsəri Azərbaycan dilinə tərcümə etmiş, ədəbi dil mütəxəssisi olaraq tərcümə dili ilə bağlı elmi-nəzəri fikirlərini növbəti dəfə bu əsərdə reallaşdırmışdır. Bu onun B.A.Serebrennikov və N.Z,Hacıyevanın "Türk dillərinin müqayisəli tarixi qrammatikası", Seyid Əhməd Cəmaləddin ibn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan", Ş,Murad Adcının "Qıpçaq çölünün yovşanı", "Türklər və dünya: gizli tarix" əsərləri kimi tərcümə yaradıcılığı ilə bərabər ümumilikdə elmi yaradıcılığının ayrılmaz hissəsi və davamıdır.

* Bakı Dövlət Universiteti Türkologiya kafedrası, Filologiya üzrə fəlsəfə doktoru,dosent, sevda.mcabbar@yahoo.com

2.İkinci tərəfdən isə alim abidə üzərində müxtəlif aspektlərdən tədqiqat aparmışdır. T.Hacıyev abidə üzərində elmi araşdırmalarını tərcümə ilə birlikdə 2005-ci ildə “Mikayıl Baştunun “Şan qızı dastanı” və poetikası” adlı kitab şəklində çap etdirmişdir. Kitabda araşdırma və tədqiqatların əks olunduğu bölmələr bunlardır:

1.Dastan və müəllifi haqqında iki söz
2.Dastanın poetikası
3.Dastanda mif və reallıq
4.Dastanda tarix
5. Dastanda coğrafiya
6.Dastanda adətlər və törələr
7.”Dədə Qorqud kitabı” ilə səsləmələr

Kitabın “Dastan və müəllifi haqqında iki söz” və “Dastanda tarix” başlıqlı bölmələrində bulqar tarixi və əsərin yazıldığı dövr, eləcə də müəllif haqqında, məlumat verilir. Alim bulqar türklərinin tarixinə kiçik ekskursiya edir, əsərin süjeti və tərcümə dilindəki tarixi faktları müəyyənləşdirir, hərbi terminlər, rütbələr, silahlar və s. haqqında maraqlı məlumatlar verir.

IX əsr müəllifi Mikayıl Baştu “Şan qızı dastanı”nın yazılma tarixini öz əsərində belə təqdim edir:

*Onu 882-də*
*Çilki Bat Uqor oğlu taxta çıxan il*
*Ərlərin müdrik məsləhətçisi*
*Baştu adlı şair yazdı.*

*[*Hacıyev: 2005, *s.104]*

M.Baştu tarixi şəxsiyyətdir, bulqar xalqının tarixində həm ictimai xadim, həm də sənətkar kimi tanınır. O, maarifçilik işi ilə məşğul olmuş, bulqar tarixində ilk dəfə əhalinin siyahıya alınması işini başlatmışdır. Onun səyləri sayəsində IX əsrin 80-ci illərində Bilyar-Bulqarda pul vahidinin hazırlanması, Uralda dəmir, qızıl, gümüş, mis, kömür və qiymətli daş yataqlarının axtarışı təşkil edilmişdir [http://dumrt.ru/ru/articles/mm-islam/mm-islam_1270.html].

Mikayıl Baştu ibn Şəms Təbir 900-cü ildə Urala səyahət zamanı vəfat edir. Kama çayında qalxan tufan M.Baştunun olduğu gəmini batırır. O özünün yaratdığı sufi-dərviş monastırında dəfn edilir. T.Hacıyev bu məlumatlara əsaslanaraq Mikayıl Baştunu üç böyük türk xaqanının- İltəris, Kapağan və Bilgə xaqanın vəziri Tonyukukla müqayisə edir [Hacıyev: 2005, s.10].

**Əsərdə türk mifik düşüncəsi və kosmoqoniya məsələləri.**

“Şan qızı dastanı”nda Tanrı və aləm, Tanrı və insan, insanın yaranması, rəqabətin meydana gəlməsi, rəqabətdən şərin törəməsi, güclü və gücsüz qarşılaşması, pislik və yaxşılıq, xeyir və şər kimi çox məsələlər yer alır. Dünyanın və insanın yaranışı bu əsərdə orijinal təqdimi ilə seçilir: Tanrı əvvəlcə ölümsüz və özünə bənzər alpları yaradır; alpların güc yarışması ilə müharibə başlayır; sonra insan yaranır; insanın gəlişi ilə şər qüvvənin fəaliyyəti daha da genişlənir və s. T.Hacıyev əsərdəki türk mifik düşüncəsi, eləcə də kosmoqoniya məsələləri üzərində ətraflı təhlillər aparır [Hacıyev: 2005, s.36-51]. “Dastanda mif və reallıq” başlıqlı hissədə “miflər də tarixi reallığın üzərində durur və hər mif müəyyən mərhələnin elmi təsəvvürüdür” konsepsiyasını irəli sürür, mif və reallıq müstəvisindən baxaraq texniki inkişafın ilkin mənbəyinin türk mifoloji düşüncəsində mövcud olması fikrini səsləndirir [Hacıyev: 2005, s. 49]. Deməli mif bildiklərimiz zaman keçidlərində gerçəyə çevrilə bilir.

Kitabın “Dastanda mif və reallıq” bölməsində əsərdəki hadisə və obrazların Azərbaycan folkloru, nağıl və dastan yaradıcılığı ilə əlaqəsindən danışılır, oxşarlıqlar və paralelliklər ümumtürk düşüncə sistemi müstəvisində təhlil edilir. Məs: Boy Terek (ağac, dirək; boylu, hündür ağac) obrazı Azərbaycan folklorundakı həyat ağacına bənzədilir [Hacıyev: 2005, s.42]. Azərbaycan dastan və nağıllarındakı yuxuda buta verilməsi, xilaskar Zümrüd quşu obrazı, div obrazı və divin canının şüşədə olması, xalq adətlərində toyda gəlinin, bəyin başına şabaş atılması və s. bu kimi bənzərliklər haqqında ətraflı məlumat verilir: süjet boyu şər qüvvənin təmsilçisi, şeytana xidmət edən Albastının canı burnunun ucundadır. Onu ancaq öz nizəsi ilə bu zəif yerindən vurub öldürmək mümkün olur. [Hacıyev: 2005, s. 50].

Maraqlı obrazlardan biri Simbir Qarğadır. O, Simurq, Zümrüd quşu kimi fədakardır, xeyrin qoruyucusudur. Şər qüvvənin insanları məhv etmək məqsədilə Günəşin qarşısına çəkdiyi divarı dağıdarkən həlak olur. Tanrının əmri ilə öz həlakı bahasına insan nəslini xilas edir. Onun ölümü də xeyrə xidmət edir. Günəşin istisindən həlak olarkən qanadları Tulpar atının üstünə düşür. Tulpar abidənin mifik obrazların-

dandır. O, süjetin əvvəlindən sonuna qədər əsas personaj kimi əsərdə iştirak edir. Qanadlı Tulpar atı bir tərəfdən yunan mifologiyasındakı Peqas atını, digər tərəfdən Azərbaycan nağıllarındakı Ağ atı və ən əsası isə Koroğlunun Dürratını xatırladır. Dastanda əsas qəhrəmanın da adı Atdır.

"Şan qızı dastanı"nda Qartalın Ağ ata çevrilməsi səhnəsi də maraq doğurur:

*Deyirlər, hətta bəzən*
*Yaradanı daşıyırmış qartal*
*Bunun üçün ağ ata çevrilmiş* o.
[Hacıyev: 2005, s.48]

At türk insanı üçün yer üzündə məkan və sərhəd sonsuzluğunu, qartal isə yüksəkliklərin, azadlığın, ucsuz-bucaqsız göyün, səmanın rəmzidir. Belə faktlar dəyərli tədqiqat materialıdır.

**"Dədə Qorqud kitabı" və "Şan qızı dastanı"nın müqayisəsi.** T.Hacıyevin "Şan qızı dastanı" və poetikası" adlı kitabında diqqəti çəkən mühüm cəhətlərdən biri də "Dədə Qorqud kitabı" və "Şan qızı dastanı"nda türk dastançılığından gələn motivlərin, hadisə, obrazların uyğunluğu və müqayisəli təhlilidir. Dastanda milli-etnik xarakterlər, oxşar bayram mərasimləri, yas və toy adətləri və bu kimi neçə səciyyəvi cəhətlərin paralelliyi ümumi tarixin qədim izlərindən xəbər verir.

Alim belə bir fikrin üzərində dayanır ki, "Şan qızı dastanı"nda verilən adətlər, mərasimlər "Dədə Qorqud kitabı" ilə səsləşirsə, bizim bugünkülərə uyğun gəlirsə, deməli bunlar ilkin xarakter daşıyır. Xalq differensiyasından əvvəlki ümumtürk hadisəsidir" [Hacıyev: 2005, s.83].

Belə uyğunluqlardan, oxşarlıq və paralelliklərdən "Dədə Qorqud kitabı" ilə səsləşmələr" adlı hissədə geniş bəhs edilir [Hacıyev: 2005, s.88,98]:

1. Hər iki əsərdə etik əxlaq normaları, etiketlər demək olar ki, eynidir. Ailə quruculuğu, dostluq, igidlik, milli-etnik xarakterlər, bayram mərasimləri, yas və toy adətləri uyğun gəlir. Məs: İcik və taygöz Barışın qızı Samur əhvalatı Beyrək və Banuçiçəyin qarşılaşması səhnəsini xatırladır və belə analoji hadisə və epizodlar çoxdur. T.Hacıyev belə bənzərliklərin bu əsərləri ana xətlə bir-birinə bağladığını qeyd edir.

2. Qəhrəmanlar çətin döyüşdə musiqidən-mahnıdan güc alır, nəğmə oxuyur.Qanturalı döyüşə girəndə 40 yoldaşına deyir ki, qolça qopuz götürüb oxusunlar. İçik də Samarla döyüşdən əvvəl nəğmə oxuyur, alpları köməyə çağırır. [Hacıyev: 2005, s.95]

3. İslam faktoru hər iki əsərdə özünü göstərir. T.Hacıyev qədim türk düşüncəsi və yeni islam anlayışları istiqamətində təhlillər verərək yazır ki, "Şan qızı dastanı" islamdan öncəki təfəkkürün məhsuludur, M.Baştu da bu dastanın ondan əvvəl yazıya alındığını, ilk variantı görmədiyini deyir [Hacıyev: 2005, s. 41], ancaq əsər yeni düşüncəyə xidmət məqsədi izləyir. Bu müstəvidə "Şan qızı dastanı"nda bir cox epizodlar "Dədə Qorqud kitabı"ndakı islam elementlərini xatırladır: "Şan qızı dastanı"nın III bölüm, 3-cü nəğməsi "Duxa Qoca oğlu Dəli Domrul boyu" ilə səsləşir [Hacıyev: 2005, s.95].

4. T.Hacıyevin üzərində dayandığı məsələlərdən biri "Dədə Qorqud kitabı"ndakı söz qəliblərin, modellərin kalka ilə "Şan qızı dastanı"nda da işlənməsidir. T.Hacıyev bu formanı əsərin ilkin türk dili variantından gəlmə olduğunu hesab edir. Məsələn, "Dədə Qorqud kitabı"ndakı *xanlar xanı* söz birləşməsi "Şan qızının" tərcüməsində *igidlər igidi (*храбрый из храбрейших*), sədaqətlilərin sədaqətlisi (*верный из верных*), ucaların ucası* (вершина из вершин) və s. şəklində verilmişdir.

H.Araslı öz tədqiqatlarında qeyd etmişdir ki, Nizami Gəncəvinin əsərlərində işlənən *şahi-şahan* izafəti məhz Dədə Qorqud kitabı"nın dilindəki *xanlar xanı* titulunun kalka yolu ilə tərcüməsidir. Çünki bu titulun farsca qarşılığı *şahənşahdır [*Hacıyev: 2005, *s.97].*

**"Şan qızı dastanı"nda qədim türk leksik qatı.**

T.Hacıyevin diqqəti yönəltdiyi vacib məsələlərdən biri əsərdə türk dil faktlarının qorunub saxlanmasıdır. Dastan rus dilinə tərcümə olunarkən türk şeiri, onun heca quruluşu, mısra həcmı ilə yanaşı müəyyən dərəcədə türk dilinin leksik qatı məqsədli şəkildə qorunub saxlanmışdır: *tanqra, alp, cin, karqa, tama, tarxan, xon, arkan(örkən), Barıs, Tülper, sak(lar), Ərbuğa, Qazan, Boyan İmen,, Bozbi, Boy Terek, Albastı, Şürəli, kara daş, İtil, Qırğızıstan* və s.. Buradakı onomastik vahidlərin, antroponim və toponimlərin tarixi-etimoloji aspektdən təqdimi maraq doğurur.

Ural toponiminin yaranması Günəşin oğlu alp Xursanın fəaliyyətinin nəticəsidir. Tanrı alplar üçün silah düzəltmə işini ona tapşırmışdır:

*Xursanın körüyünün ətrafında*
*Külçələrin külündən dağ yaranır*
*Onu "Xursa-alp" adlandırırlar ,*
*Ural o sözdən alınıb*

[Hacıyev: 2005, s.105]

Volqa çayının qədim adı İtil əsərin əsas qəhrəmanı Atın ölkəsi olan Atilin adı ilə bağlıdır. Lakin Atil ölkəsində yaşayan sabanlar bu adı öz dillərinə uyğun İtil tələffüz etmişlər:

*O cavab verdi:*
*Bu, **Atın** ölkəsi **Atildir**.*
*Buna gorə çay da*
***Atil** adlanır Ancaq burada yaşayan*
*Bizlər sabanlar*
*Atili çətin dediyimizcün*
*Buna **İtil** deyirik.* (Volqa çayı);

Maraqlıdır ki, "Şan qızı dastan"ında indiki Kiyev toponiminin ilk variantı olan *Baştu* adının dəyişmə səbəbi, *Kıy* adı ilə əvəzlənməsi, həmçinin *Qızıl qum* , *Baykal* və s. toponimlərin yaranması süjetdəki hadisələr, obrazlarla əlaqəli açıqlanır:

*Torpaq goyə qalxdı,*
*Yenə öz yerinə töküldü,-*
***Kuyantau təpəsi***
*Yarandı.;*
*Qulluqdan boyun qaçırdığı üçün,*
*"**Kəsilmiş", "ayrılmış**" mənasında olan*
*"**Kıy** adını verdi*
*Qardaşına Xan Qurbat*

*[*Hacıyev: 2005, *s.271]:*

*Baştu şəhərinə*
***Kıy** dedilər onun adıyla,*
*Baştu qalasına da*
*Şambat dedilər*

*[*Hacıyev: 2005, *s.272]*

Bu gölün sahilləri
Qızıl quma çevrildi.

[ Hacıyev: 2005, s.141]

**Böyük gol oldu çala**
**Boyqal gölü** (Baykal gölü)
Dedilər ona

[Hacıyev: 2005, s.151]

"M.Baştunun "Şan qızı dastanı" və poetikası" adlı kitabın sonunda bu dil faktlarının izahlı lüğəti təqdim edilir. [Hacıyev: 2005, s.302,308]

"Şan qızı dastanı"nda bulqar türkünün, ümumilikdə türkün tarixi ilə coğrafiyası bir-birinə bağlı, tarix və məkan qovuşaqları, kecidləri ilə öz əksini tapır. Mühüm olan isə bu coğrafiyanı əks etdirən toponimlərin orijinal dil faktları ilə saxlanmasıdır.

**"İqor polku haqqında povest" əsəri ilə uyğunluqlar**.

Kitabda T.Hacıyevin üzərində dayandığı maraqlı məsələlərdən biri də "Şan qızı dastanı"ndakı bəzi misralaraın "İqor polku haqqında povest" əsəri ilə tam oxşarlıgıdır. 70-80-ci illərdə O.Süleymenov dil faktlarına söykənərək "Povest"in türkcədən tərcümə olması haqqında fikir söyləmişdir. Bu elmi ictimaiyyətdə böyük rezonans yaratmışdır. Rus və bulqar tədqiqatçıları bu istiqamətdə araşdırmaılarında "Şan qızı dastanı" və "İqor polku haqqında povest" əsərləri arasında bir cox uyğunluqlar tapmışlar. Ukraynalı Yuri Oleynikin fikrincə "İqor polku haqqındakı dastan"dakı Boyan "Şan qızı dastanı"ndakı Alp Boyanın təsirindən yaranmışdı (Hacıyev: 2005, s.59), həmçinin "Povest"dəki ağac üzərində gəzən divlə "Şan qızı dastanı"ndakı Boy Terek eyni obrazdır [Betül Aydoğdu, 2006, s.260] . T.Hacıyev isə bütün bu araşdırmalara özünün yeni tapıntısını əlavə edir. O, "Povest"dəki "rus nəğməkarı" adlandırılan obrazın-*Boyanın* dilindən soylənilən nəğmə ilə "Şan qızı dastanı"nda *Boyan-İmenin* nəğməsinin demək olar ki, eynı olduğunu aşkar edir. Bu da maraqlıdır ki, tədqiqatlarda Boyanın adının "Povect"də yeddi dəfə işlənməsi və onun XI əsrdə rus knyazlarının saray müğənnisi kimi tarixi personaj olması söylənilir. " Şan qızı dastanı"ndakı Boyan "İqor polku haqqında povest" əsərindəki nəğməkardan fərqli olaraq ayrı-ayrı hadisələrin icərisində iştirak edən, müxtəlif tərəflərdən tanınan tam və dolğun obrazdır. Süjetdən məlum olur ki, o, Günəş və Ayın övladıdır, məkanı ulduzların arasında idi. Göydə darıxdığı üçün Tanrıdan xahiş edir, yerə enməyə icazə alır. Ata-anası ulduz övladlarına qəzəblənir, cəzalandırmaq istəyirlər. Buna görə də Boyan üzü niqabli gəzir, özünü hamıdan gizlədir. Sonda insan kimi ölümlü olmağı seçir, onun övladları isə yer üzündə bulqar türklərinin nəslini davam etdirir.

"Povest"də boyanın nəğməsi və Azərbaycan dilinə tərcüməsi belədir:

Skazali Boyan i Xodına
**"Tyajko qolove bez pleç**
**Beda telu bez qolovı"-**
Tak i Russkoy zemle bez İqorya
Boyan və Xodına dedilər:
**" Çiyinsiz başa ağırdır**
**Başsız bədənə müsibətdir", -**
**Beləcə Rus torpağına da İqorsuz fəlakətdir**
**("İqor polku haqqında povest")**

"Şan qızı dastanı"nda Boyanın qədim bulqarca nəğməsini İ.Niqmatulin rus dilinə belə tərcümə etmişdir:

Boyan pel:**Tyajelo qolove bez pleç,**
**Tyajelo i pleçam bez qolovı**
**Tyajelo detyam bez otsa,**
**Eşşe tyajelee otsu bez sınovey.**

T.Hacıyev isə Boyanın nəğməsini belə təqdim edir:

Boyan oxurdu:
**"Çiyinsiz başa çətindir**
**Başsız da ciyinə çətin,-**
**Uşaqlara atasız ağırdır,**
**Ataya oğullarsız daha ağır.**

"Şan qızı dastanı"ndakı nəğmə daha ilkindir. Bir atanın həsrətini çəkdiyi oğlu üçün oxuduğu nəğmə, demək olar ki, sonradan xalq içərisində yayılır, ümumi dərdin nəğməsinə çevrilir. Türk düşüncə sistemində formalaşan, kalka ilə çevrilən (eyni qəlib və eyni deyim) deyim tatar alımlərinin təqdim etdiyi hər iki əsər arasındakı eyniyyət və oxşarlıqlara T.Hacıyevin yeni əlavəsidir. Bu nümunə atalar sözü, məsəl, aforizmlərin türk bədii dilində, şeirində ənənəvi işlənmə və istifadə mexanizmini, poetexnik xüsusiyyətlərini əyani göstərir. Belə ifadə eyniliyi və oxşarlıqlar "Povest"in də "Şan qızı dastanı" kimi tərcümə olması ehtimalını artırır.

**Qədim türk şeir nümunəsi "Şan qızı dastanı"nın tərcümə mətnində**.

Diqqəti cəlb edən məsələlərdən biri də "Şan qızı dastanı"nın rus dilindəki mətni icərisində bulqar dilində iki bənd şeirin tərcümə edilmədən verilməsidir. Tərcüməçi-müəllif bununla da əsərin orijinal dilini, türk şeir texnikasını, vəznini, heca quruluşunu bu parçalar vasitəsi ilə qoruyub saxlamış, bu yolla gələcək nəslə əsər haqqında ən vacib məlumatı ötürmüşdür. Ən əsası isə, bu iki bənd şeir, tədqiqatlarda da qeyd olunduğu kimi, M.Kaşğarının "Divanü lüğət-it-türk" əsərində verilmişdir:

*1.Bal tutub otru*
*Yek sanqa bardı.*
*Kal bolub talu yuvqa*
*Kediban barçın*
*"(Держал мед*
*К тебе черт навстречу шагал*
*Одевая в шелка*

[Hacıyev: 2005, s.243]

M.Kaşğarinin "Divan"ında bu beyt belə təqdim edilir: "Bal: bal.Suvar, qıpçaq və oğuz dillərində. Digər türklər bala "arı yağı" deyirlər. Bu beytdə də işlənmişdir:

*"Bardı sanqa yek otru tutup bal,*
*Barçın kedhibən **təlü yuvğa** bolup kal"*
Gəldi yanına şeytan tutub bal
İpək geyibən, səfeh olub qal"

[Kaşğari: 2006, IV, s.156]

***Təlü*** -dəli, səfeh
***Yuvğa***- yumşaq

Divanda sözlərin, misraların sırasında məzmuna təsir etməyən inversiya özünü göstərir. İkinci şeir parçası belədir:

*İtil suyı aka turur*
*Kaya tübi kaka turur*
*Balık* **telim** *baka turır*
***Kölünq takı*** *kuşerür.*
*(«Воды Итилья текут ударяясь*
*О твердыню скалы (берегов).*
*Лягушек, рыб стада живут,-*
Ими полон озерный разлив»)

***Telim***- cox, xeyli, daim
***Takı***- dəxi

İtil suyu axır
(İtilin suları axır
Qaya dibin döyəcləyir
Balıq sürüynən baxır,
Qurbağalar, balıqlar sürü ilə yaşayırlar
Qayaların dibinə, sahillərə çirparaq
Gölün daşqınları da doludur

[Hacıyev: 2005, s.275]

*İdil suyu axa durur (axır)*
*Qaya dibin döyə durur(döyür)*
*Balıq çoxdur baxa durur (baxır),*
*Gölməçəlr dəxi daşır.*

[Kaşğari: 2006, I, s.141]

**Nəticə**. T.Hacıyev qeyd edir ki, "Bu günə qədər bizə məlum olan türk bədii nümunələri içərisində "Şan qızı dastanı" qədər qədim mifoloji anlayış və hadisələrlə zəngin olanı yoxdur" [Hacıyev: 2005, s.36]. Odur ki, bu əsərin tədqiqi türk ədəbiyyatı, tərcümə olmasına baxmayaraq türk şeir dili və ümumtürk tarixi üçün böyük əhəmiyyət daşıyır. Çünki qədim türk başlanğıcına, kökünə aparır. Bununla da T.Hacıyev bir çox tədqiqat sahələrində olduğu kimi, "Şan qızı dastanı"nın təhlilində də ilk əsaslı işi başlamış olur, bütün vacib istiqamətləri müəyyənləşdirərək gələcək nəslə və tədqiqatçılara ötürür.

## ƏDƏBİYYAT

1. Betül Aydoğdu. *Şan Kızı Destanı Hakkında Bir Değerlendirme* /Türklük Bilimi Araştırmaları, 2006, (19), 257-268 https://dergipark.org.tr/en/pub/tubar/issue/16960/177101

2. Bülent Bayram. *Tatar-Bulgar Meselesi Temelinde Bir Destan: Şan Kızı* /Karadeniz Araştırmaları, Cilt:6, Sayı: 21, Bahar 2009, s.75-94. http://www.ajindex.com/dosyalar/makale/acarindex-1423906829.pdf

3. Hacıyev T.İ. (2005). *Mikayıl Baştunun "Şan qızı dastan"ı və poetikası*. Bakı, Təhsil, 312 s.

4. İjbulatov Midxat. *Poeme "Şan kızı dastanı"-1130 let! Vozvraşenie dastana "Şan kızı" narodu iz nebıtiya.* http://dumrt.ru/ru/articles/mm-islam/mm-islam_1270.html

5. Kaşğari M. (2006). *Divanü-lüğat-it-türk* (dörd cilddə). Bakı, Ozan, , I cild, 511s.

6. Kaşğari M. (2006). *Divanü-lüğat-it-türk* (dörd cilddə). Bakı, Ozan, , IV cild, 751s.

7. Mamedova L.V. *Süjet o obrazuyuşşaya tema lyubvi v "Skazanii o doçeri Şana"/*Vestnik tyürkskoqo mira №1. Maxaçkala, 2010 (2) str.32-38

8. https://tengrifund.ru/skazanie-o-docheri-shana.html

**Sevda SADIGOVA**

## ANCIENT TRACES OF TURKISH HISTORY, THOUGHT AND LANGUAGE IN THE "EPIC OF SHAN GIZI"

*(DEDICATED TO THE 85TH BIRTH ANNIVERSARY OF THE ACADEMICIAN TOFIG HAJIYEV)*

## SUMMARY

The article is dedicated to the study of Mikail Bashtu's "Epic of Shan gizi". The article depicts that the "Epic of Shan gizi" was first presented to the Azerbaijani scientific community by academician T. Hajiyev, who translated the monument into Azerbaijani and conducted the research in the field of Turkic history, worldview and language. The article also discusses the scholar's comparative analysis with the "Book of Dede Gorgud", along with the new additions to the comparison between "The Tale of Igor's Regiment" and "The Epic of Shan gizi" in the scientific literature. It is noted that T.Hajiyev defines the main directions of research of the Bulgarian monument not only as a linguist, but also as a historian, ethnographer, and philosopher. The article emphasizes that the Bulgarian literary monument "Epic of Shan gizi" is an all-Turkic fact

**Key words:** *Epic of Shan Gizi, Tofig Hajiyev, myth, history, language, Bashtu, Kiy*

**Севда САДЫГОВА**

## ДРЕВНИЕ СЛЕДЫ ТЮРКСКОЙ ИСТОРИИ, МЫШЛЕНИЯ И ЯЗЫКА В «СКАЗАНИЕ О ДОЧЕРИ ШАНА»

(*ПОСВЯЩАЕТСЯ 85-ЛЕТИЮ СО ДНЯ РОЖДЕНИЯ АКАДЕМИКА Т.ГАДЖИЕВА*)

## РЕЗЮМЕ

Статья посвящена проблеме исследования булгарского памятника «Сказание о дочери Шана» Микаила Башту. В статье говорится, что «Сказание о дочери Шана » впервые было представлено азербайджанской научной общественности академиком Т.Гаджиевым; памятник был переведен на азербайджанский язык и был исследован в конгексге общетюркских истории, мировоззрения и языка. В статье рассматриваегся вопрос сравнительного анализа памятника «Деде Коркуд» с «Сказание о дочери Шана», а также дополнения к аналогичным фактам относящихся к памятнику «Слова о полке Игореве » в научной литературе. Отмечается, что Т.Гаджиев исследует памятник не только как лингвист, но и как историк, этнограф, философ определяет основные исследовалские направления. В статье подчеркивается, что булгарский литературный памятник «Сказание о дочери Шана» («Шан-кызы дастан») является общетюркским фактом.

**Ключевые слова:** *Шан-кызы дастан, Тофик Гаджиев, миф, история, язык, Башту, Кий*